*N.Bəkirov. Molla Cümənin əsərləri toplanmış dörd əlyazma dəftər barədə // Əlyazmalar yanmır, 2020, № 1 (10), s. 29-33.*

UOT: 82-3.512.162

**Novruz Bəkirov**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
*e-mail: bekirov.novruz@mail.ru*

# MOLLA CÜMƏNİN ƏSƏRLƏRİ TOPLANMIŞ DÖRD ƏLYAZMA DƏFTƏR BARƏDƏ

**Xülasə**

Molla Cümə XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində yaşamış görkəmli şair, ustad aşıq olmuşdur. Molla Cümənin ədəbi irsinin tədqiqi ilə bağlı Azərbaycacanın şimal-qərb bölgəsinin müxtəlif rayon və kəndlərinə etdiyimiz fərdi ekspedisiyalar zamanı onun ərəb əlifbası ilə yazılmış dörd əlyazma dəftəri aşkar edilmişdir. Dəftərlər Molla Cüməyə yaxın olan insanlar və onun pərəstişkarlarında qorunub saxlanmışdır. Həmin insanlarla Molla Cümə əsərlərinin tədqiqi ilə bağlı apardığımız izzahedici söhbətlərdən sonra dəftərlərin sahibləri həmin dəftərləri bizə təqdim etmişlər. Dəftərlər tərəfimizdən araşdırıldıqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstituna hədiyyə edilmişdir. Dəftərlərə Əlyazmalar İnstitunda D 1020/1,2,3,4 şifrəsi təyin edilərək qeydiyyata alınmışdır. Məqalədə dəftərlərdəki əsərlər barədə məlumatlar qeyd edilir.

***Açar sözlər:*** *Molla Cümə, ustad aşıq, əlyazma, dəftər, tədqiqat.*

**Giriş**

*Məlum olduğu kimi, Molla Cümə yaradıcılığı XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərinə təsadüf edir. Bir çox şairlərin də dediyi kimi, Molla Cümə dərvişlər kimi yaşamış, oba-oba, kənd-kənd gəzmiş və olduğu yerlərdə məktəb yaratmış, gəzib-dolaşanda şeirə-sənətə həvəsi olanları ətrafına toplamışdır. Molla Cümə olduğu yerlərdə öz şeirlərini böyük həvəslə yerli ziyalılar və xalq arasında təbliğ etmişdir.*

*Molla Cümə irsinin tədqiqi ilə əlaqədar bölgələrə etdiyimiz fərdi ekspedisiyalar zamanı əldə etdiyimiz şairin əsərlərindən ibarət ərəb əlifbası ilə yazılmış dörd əlyazma dəftər onun yaradıcılığının xalq arasında geniş yayıldığını göstərir. Dəftərlər tam olaraq tərəfimizdən araşdırıldıqdan sonra əski yazıdan masir əlifbaya çevrilmiş və təhlil edilmişdir.*

Molla Cümə əsərlərinin əlyazma nüsxələrinin tədqiqi ilə əlaqədar ilk öncə onun bizə məlum olan əlyazmaları ilə tanış olduq və nəşr edilmiş əsərlərini toplayaraq tədqiq etdik. Bundan sonra Molla Cümənin tədqiqatçılarının əsərlərinə müraciət etdik. Molla Cümə əsərlərinin tədqiqatçılarından akademik Həmid Araslı, Salman Mümtaz, Ərtoğrol Cavid, professor Məhərrəm Qasımlı, Paşa Əfəndiyev, Nazir Əhmədli, Gülbəniz Babaxanlı, İlhamə Qəsəbova və başqalarını göstərə bilərik. Əldə edilmiş məlumatlar tərəfimizdən tam olaraq araşdırıldıqdan sonra biz təkrarən onun əlyazma nüsxələrinin tədqiqi məqsədilə bir sıra bölgələrə fərdi ekspedisiyalar təşkil

etdik. Belə ekspedisiyalardan biri də Azərbaycanın şimal-qərb bölgəsinə idi. Bu bölgədə Molla Cümə əsərlərinin tədqiqi ilə əlaqədar müxtəlif məlumatlar toplanması məqsədilə çox sayda tədqiqatçılarla, şairin pərəstişkarı olan digər insanlarla görüşlər keçirdik. Aparılan söhbətlər zamanı çox sayda məlumat əldə etdik. Bu əsnada Molla Cüməyə məxsus ərəb əlifbası ilə yazılmış 4 (dörd) əlyazma dəftərin izinə düşdük. Dəftər sahibləri ilə söhbətlər aparıb, dəftərlərin tədqiq ediləcəyini bildirdik. Söhbətdən sonra dəftər sahibləri məmnuniyyətlə onları bizə təqdim etdi. Əldə edilmiş əlyazma dəftətərlər tərəfimizdən araşdırıldı və aşağıdakı qənaətlərə gəlməmizə səbəb oldu:

**Birinci əlyazma dəftər:** Ekspedisiya zamanı Zaqatalanın Kəpənəkçi kəndində olduq. Aşıq Murtuzəlinin nəticəsi Xuraman xanım Şabanova ilə görüşdük. Xuraman xanım əlimizdəki dəftərin onun ulu babası aşıq Murtuzəliyə məxsus olduğunu bildirdi. Onda Molla Cüməyə məxsus digər şeir dəftərinin olmadığını söylədi. Əlimizdəki dəftəri isə biz şərti olaraq **Zaqatala nüsxəsi - birinci əlyazma dəftər** adlandırdıq [3].

Dəftər tərəfimizdən təhlil edilmişdir. Dəftərdə 81 qoşma, 3 bayatı, 7 müxəmməs, 21 divani, 8 təcnis, 7 təxmis, 49 gəraylı yazılmışdır. Ümumilikdə **birinci əlyazma dəftərdə**, cəmi 176 əsər qeydə alınmışdır.

**İkinci əlyazma dəftər:** Fərdi ekspedisiya zamanı olduğumuz növbəti yer Qax rayonu İlisu kəndi idi. Kənd camaatından Molla Cümənin pərəstişkarı Yunis Təhməzov haqqında öyrəndik. Lakin Yunis müəllim dünyasını dəyişdiyindən yalnlz onun övladları ilə görüşə bildik. Varisləri onun, həqiqətən də, Molla Cümənin irsinin bilicisi və təbliğatçısı olduğunu təsdiqlədilər və bizə mərhuma məxsus bir dəftər təqdim etdilər. Dəftərdə Molla Cümənin şeirləri toplanmışdı. Biz şərti olaraq bu dəftəri **İlisu nüsxəsi** - ikinci dəftər adlandırdıq [4]. Yunis müəllimin qohumları qeyd etdilər ki, Molla Cümə hələ 15 yaşında ikən bu kəndə gəlmiş, Molla Məhəmməddən dərs almışdır. Sonra Molla Cümənin şairliyə meyli olduğundan, o şeir yazmağa başlamış və Molla Məhəmmədlə sözləri düz gəlmədiyindən kəndi tərk etməli olmuşdur. Ancaq buna baxmayaraq, Molla Cümə ona doğma olan və təhsil aldığı İlisunu heç vaxt yaddan çıxartmamışdır. Bütün bunlara biz onun şeirlərində də rast gəlirik. Aşığın həyatı ilə bağlı tərtibçisi və elmi redaktoru G.Babaxanlı olan "Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid. Azərbaycan qeyri-maddi-mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı mənbədə də bu haqda qeydə rast gəlirik: " ... Molla Cümə 15 yaşından şerə, saza məhəbbət bəsləyib. Mollası Molla Məhəmmədin nəsihətinə baxmayıb saz götürüb aşıqlığa başlamışdır. Molla "aşıqlar, şairlər cəhənnəmdə qətrən qazanında yanacaqlar, çalıb oxusan, gözün kor olacaqdır" – demişdir. Mollanın bu hədəsinə cavab olaraq Molla Cümə onu həcv etmişdir:

Məndən salam olsun, Molla Məhəmməd,
Yeni aşıq olmuşam saz göndər mənə.
Özüm söz deməyə hələ acizəm
Bir qədər nəzm eylə, söz göndər mənə...

Bu həcvdən sonra Molla Cümə aşıqlıq etmişdir. ... 1920-ci ildə Qışlaq Layisqi *(Aşağı Layisqi)* kəndində Şura höküməti tərəfindən qəddarcasına öldürülmüşdür". [1.s.19-20].

Dəftərdəki əsərlərin hamısı müasir əlifbaya çevrildikdən sonra tam olaraq tərəfimizdən təhlil edilmişdir. Təhlil zamanı dəftərdə olan əsərlər aşağıdakı təsnif edilmişdir: Qoşma (qafiyə, dübeyt, gözəlləmə) - 138, bayatı – 26, müxəmməslər - 45, divani - 28, təcnis - 16, təxmis - 3, deyişmə - 1, müxtəlif şeirlər -14. Ümumilikdə, bu dəftərdə müəllifin 271 əsəri yer almışdır (onlardan 26 bəndi bayatıdır) [2. s.187].

**Üçüncü əlyazma dəftər**: Molla Cümənin əlimizdə olan üçüncü əlyazması M.Ə.Sabirin 1914-cü ildə İsa bəy Aşurbəyovun mətbəəsində buraxılan "Hophopnamə"sidir. Kitabın bütün səhifələrində ağ yerlərə Molla Cümənin şeirləri yazılmışdır. Bir sıra səhifələrdə hətta şeirlərin yazılma tarixi də vardır (1918, 1919 və s.). Müqayisələr göstərir ki, "Hophopnamə"nin səhifə-

lərində olan şeirlər daha dəqiq və kamildir. Əlyazmasını bizə təqdim edən Şəkinin Aşağı Göynük kənd orta məktəbinin müəllimi Vədud Hacıyevdir. Vədud müəllimin dediyinə görə, atası Salman Rzaqov (o, 1943-cü ildə vəfat etmişdir) 20 ildən artıq Molla Cümə ilə dostluq etmişdir. S.Rzaqov özünə məxsus olan "Hophopnamə"ni o zamanın ziyalılarını, dostlarını başına toplayıb oxuyarmış. Molla Cümə də belə məclislərin daimi qonağı imiş. O hər dəfə "Hophopnamə"yə qulaq asandan sonra öz əlilə kitabın səhifələrindəki ağ yerlərə şeirlərindən bəzilərini yadigar olaraq və həm də minnətdarlıq əlaməti kimi yazarmış. "Hophopnamə"nin səhifələrində ağ yer qalmamış, Molla Cümənin şeirləri sanki Sabir satiralarına qaynayıb-qarışmışdır. Kitabın səhifələrində Molla Cümənin 221-ə yaxın şeri vardır. Şairin həmin əlyazmasını isə biz **"Hophopnamə" – Şəki (Göynük) nüsxəsi** adlandırırıq [5]. Təhlil zamanı dəftərdə nə qədər əsərin olması müəyyən edilmişdir. Onlardan: Qoşma (qafiyə) - 100, bayatılar - 45, müxəmməslər - 29, divani - 19, təxmis - 22, müxtəlif şeirlər - 23. qəzəl - 9, minacat - 2 olmuşdur. Ümumilikdə, 3-cü əlyazma dəftərdə 249 əsər var.

**Dördüncü əlyazma dəftər:** Tədqiqat zamanı bölgədə Molla Cümənin pərəstişkarı olan digər insanlarla da görüşməyə nail olduq. Onlardan Elman və Habil Əzizovları da qeyd etmək istəyirəm. Onlar, Molla Cümənin sağ qalmış yeganə qızı Reyhan xanımın nəvələri, Molla Cümənin isə nəticələridir. Onların qeyd etdiklərinə görə, 1918-ci ildə şura hökuməti gələrkən Molla Cümənin kitabxanasını yandırmışlar. Digər əllərdə qalan əlyazmaları isə ərəb əlifbası ilə olduğundan həmin dəftərlər də məqsədli şəkildə qurandır deyərək yandırılmışdır. Həmin dövrdə, ümumiyyətlə, ərəb əlifbası ilə olan bütün yazılar məhv edilirdi. Elmanın dediyinə görə, ulu babası Molla Cümədən qalan bir neçə əlyazma nüsxə Molla Cümənin qızı Reyhan xanım tərəfindən 1930-1960-cı illərdə tədqiqatçılara verilmişdir. Belə tədqiqatçılardan Həmid Araslı, Salman Mümtaz, Hümmət Əlizadə, Ərtoğrul Cavid, Paşa Əfəndiyev və başqalarını göstərmək olar. Əlimizdə olan, şərti olaraq **Şəki (Layısqı) nüsxəsi** adlandırılan **dördüncü dəftər** Molla Cümənin əlyazmasıdır [6]. Dəftərdəki əsərlərin hamısı tərəfimizdən Azərbaycan əlifbasına çevrilmiş, təhlil edilmişdir. Təhlil zamanı şeirlər aşağıdakı kimi təsnif edilmişdir: Qoşma (qafiyə) - 123, bayatılar - 11, müxəmməslər - 13, divani - 1, təcnis - 25, təxmis - 10, qəzəl - 3. Ümümilikdə, dəftərdə şairin 186 əsəri yer alımışdır.

Artıq Molla Cüməyə məxsus dörd əlyazma dəftərin müxtəlif mənbələrdən əldə edilməsi məlumdur. O da məlumdur ki, əllərdə Molla Cümənin digər dəftərləri də var, ancaq hələlik biz onları əldə edə bilməmişik. Əldə etdiyimiz bütün dörd dəftər isə tərəfimizdən tədqiq edilərək müəyyən edilmişdir: Dəftərlərdə şair şəxsən öz əli ilə ümumilikdə 882 əsər yazmışdır.Onlardan 85 bəndi bayatıdır.

Dəftərlərdə aşkar etdiymiz məlumatlar bu günə Molla Cümənin ən məhsuldar tədqiqatçısı sayılan Paşa Əfəndiyev tərəfindən tərtib edilmiş "Molla Cümə. Əsərləri" adlı külliyati ilə müqayisə edilmişdir. Müqayisə zamanı müəyyən edilmişdir ki, Molla Cümə bir çox ədəbi janr və formalarda əsərələr yaratmışdır. Yuxarıdakı rəqəmləri müqayisə edərkən fərqlər aydınca görünməkdədir. Məsələn, əgər Paşa Əfəndiyevin tərtib etdiyi kitabda ("Molla Cümə. Əsərləri") nəşr edilmiş əsərlərin sayı ilə əlyazma dəftərlərdəki əsərlərin sayını müqayisə etsək, 19 qoşma, 16 gəraylı, 27 müxəmməs, 2 divani, 7 gözəlləmə, 1 qəzəl, 2 münacata həmin kitabda rast gəlinməmişdir. Eyni zamanda əksinə, kitabda (P.Ə.) nəşr edilməmiş 21 bayatı, 88 qoşma, 41 qoşma-beyt, 25 müxəmməs, 21 divani, 42 təxmis, 16 gəraylı, 7 gözəlləmə, 2 qəzəl, 4 müxtəlif şeirə əlyazma dəftərlərdə rast gəlinməmişdir. Eyni zamanda əsərlərin məzmunlarının müqayisəli təhlili zamanı əlyazma dəfətərlərdə və nəşrlərdə rast gəlinən eyniadlı şeirlərin bir çoxlarının məzmun və yazılış formalarının da fərqli olduğu görünməkdədir. Müqayisəli təhlildə görünən bu fərqlər çox ciddi fərqlərdir. Bu isə bizə deməyə əsas verir ki, Paşa Əfəndiyev tərəfindən aparılan tədqiqat zamanı, o, digər bir və ya bir neçə əlyazmadan da istifadə etmişdir ki, həmin əlyazmaları biz hələlik əldə edə bilməmişik. Ola bilsin ki, həmin əlyazmalar tədqiqatçı-alim Paşa Əfəndiyevin şəxsi arxivindədir, ya da digər əlyazmalar kimi alimin yaxın ətrafı tərəfindən götürülmüş və şəxsi arxivlərdə hələ də tədqiq edilməmiş saxlanmaqdadır. Tədqiqat zamanı bir

neçə digər belə hallara da rast gəlmişik. Belə hallar isə nə qədər çalışsaq da, qüdrətli sənətkar Molla Cümənin əsərlərinin tam olaraq tədqiq edilməsinə əngəllər yaratmışdır. Məhz elə buna görə hələ də, şairin əsərlərinin tam tədqiqi və yaradıcılığı barədə dolğun məlumatların geniş ictimaiyyətə çatdırılması mümkün olmamışdır.

**Nəticə**

*Azərbaycanın görkəmli şairi, ustad aşığı və sənətkarı Molla Cümənin zəngin ədəbi irsi hələ də tam tədqiq edilməmişdir. Tərəfimizdən aparılan tədqiqat zamanı şairin 4 (dörd) yeni əlyazma dəftəri aşkar edilmişdir. Ümumilikdə dəftərlərdə şairin 882 əlyazma əsəri müəyyən edilmişdir. Müasir əlifbaya çevrilmiş bu əlyazma əsərlər Paşa Əfəndiyev tərəfindən tərtib edilmiş "Molla Cümə. Əsərləri" adlı külliyatında nəşr edilmiş əsərlərlə müqayisə edilmişdir. Bu əlyazmalarda olan 260 əsərin adıçəkilən kitabda olmadığı müəyyən edilmişdir. Eyni zamanda əsrlərin məzmunlarının müqayisəli təhlili zamanı isə eyniadlı əsərlərdə bir sıra fərqlərin olduğu müəyyən edilmişdir. Əldə etdiyimiz dörd əlyazma dəftərdə olan 882 adda əsər bir daha Molla Cümənin ədəbi irsinin zənginliyindən xəbər verir. Bu kimi faktlar Molla Cümə ədəbi irsinə elmi nöqteyi-nəzərindən yenidən baxılması anlamına gətirir.*

*Aşkar edilən Molla Cüməyə məxsus dörd əlyazma dəftər tədqiqini asanlaşdırmaq məqsədi ilə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstituna təhvil verilmişdir. İnstitut tərəfindən həmin əlyazmalar D 1020/1,2,3,4 şifrəsi ilə qeydiyyata alınmışdır.*

*Hesab edirik ki, əldə edilmiş dörd əlyazma dəftər tərəfimizdən tam tədqiq edilməlidir. Tədqiq edildikdən sonra Molla Cümənin dəftərlərdə olan və nəşr edilməmiş digər əsərləri toplanmalıdır. Bundan sonra qarşımızda Molla Cüməyə məxsus toplanmış yeni əsərlərin bir külliyat formasında nəşr edilməsi kimi mühümm bir vəzifə durmaqdadır. Bu da tərəfimizdən Azərbayacan ədəbiyyatının klassik şairi Molla Cümənin ruhuna böyük ehtiram əlaməti olaraq xalqımıza isə hədiyyə olacaq.*

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid. Azərbaycan qeyri-maddi-mədəniyyət abidələri və Ərtoğrol Cavid. On iki cilddə. 9-cu cild/Tərtibçi və elmi redaktor: Gülbəniz Babaxanlı. Bakı: Çaşıoğlu-2011. s.19-20.
2. Molla Cümə. Əsərləri / Tərtibçi:Paşa Əfəndiyev. Bakı, "Şərq-Qərb", 2006, 648 səh.
3. Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, Əlyazmalar Fondu D-1020/1.
4. Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, Əlyazmalar Fondu D-1020/2.
5. Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, Əlyazmalar Fondu D-1020/3.
6. Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, Əlyazmalar Fondu D-1020/4.


**Новруз Бакиров**

**О четырех тетрадях, в которых собраны произведения Моллы Джумы**

Богатое литературное наследие выдающегося поэта, мастера-ашуга Азербайджана Моллы Джумы все еще полностью не исследовано. В ходе проводимых нами исследований были обнаружены четыре новых рукописных тетрадей поэта. В обнаруженных нами тетрадях было выявлено в общей сложности 882 рукописных произведений поэта.

Эти произведения, переписанные с арабского алфавита на азербайджанский алфавит, были сравнены с произведениями, опубликованными в полном собрании сочинений, под названием «Молла Джума. Произведения», составленном Пашой Эфендиевым. В ходе сравнения было установлено, что в упомянутой книге не было 260 произведений, написанных в рукописях. В то же время, в ходе сравнительного анализа содержаний произведений, в работах с одноименным названием были обнаружены некоторые различия. 882 произведения, написанные в обнаруженных нами четырех рукописных тетрадях, еще раз доказывают богатство литературного наследия Моллы Джумы.

***Ключевые слова***: *Молла Джума, мастер-ашуг, рукопись, тетрадь, исследование*

**Novruz Bakirov**

**About four notebooks containing the works of Molla Juma**

Prominent Azerbaijani poet, ashug Molla Juma's rich literal heritage has not been investigated completely yet. During the investigation implemented by us, totally poet's four new manuscripts were revealed. Generally, poet's 882 manuscript works were defined on the revealed notebooks. These manuscript works, which were translated from Arabian alphabet to Azerbaijani alphabet, were compared with the works, published in the "Molla Juma's works" Complete Works, compiled by Pasha Afandiyev. During the comparison, it was defined that, 260 works in manuscripts had not exist in the mentioned book. At the same time, while comparative analyse of the contexts of the works, there were defined some differences in the works with same name. 882 works on the four manuscript notebooks, which we have obtained, again informs us about poet Molla Juma's literal richness.

***Keywords:*** *Molla Juma, master-ashug, manuscript, notebook, investigation.*

Redaksiyaya daxilolma tarixi: 13.04.2020
Çapa qəbul olunma tarixi: 05.06.2020

Filologiya üzrə elmlər doktoru, professor
**Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.